# Əl tutmaq Əlidən qalıb

(esse)

Hansı yola, məzhəbə qulluq eləsək belə taleyin oyunundan baş açmaq müşküldü hələ. Yaradan kiməsə xoşbəxt həyat, başdan aşan var-dövlət qismət eləyir, kiminə bir loxma çörəyi çox görür. Xalq şairi Məmməd Arazın aforizmi yada düşür: ”Bu taleyin oyununda cütləşmiş zərik, yüz yol qoşa atılsaq da qoşa düşmərik”.

Aqillə Həlimə qəlbən, ruhən bir-birilərinə məftun olmuş, bir-birilərini sevib evlənmiş və bu ilahi sevginin ”meyvəsinə” baxıb fərəh hissi keçirirlər: 5 övladları var - 3 qız, 2 oğlan. Gözəl tərbiyəli, əxlaqlı balalardı. Qızlar əhli-namazdı.

Böyük, məmurlara, tacirlərə layiq imarətləri yoxdu, balaca, ikiotaqlı komada yaşayırlar. Allaha şükür-səna eləyib, sağlam can, ağıl və ruzi diləyirlər. Canları safdı, buz baltası kimi. Ağıl sarıdan da gileygüzar edə bilməzlər. Ruzi sarıdan bəxtləri gətirməyib. Çox kasıbdırlar. Bir qarın ac, bir qarın tox, yıxıla-dura vəziyyətindədirlər. Mədrəsədən qayıdan oğlanlar uzaqlara gedib çöllərdə dişə dəyməli, nəsə yeməli bir şey, əməköməci, quşəppəyi, yağlıca... axtarırlar, əllərinə bir şey düşsə, bacılarını da unutmurlar.

Yoxsulluq hamıdan çox zavallı Həliməni düşündürür. Çıxış yolu axtarır və tez-tez evin kişisini dümsükləyir:

-Ay Aqil, neyləyək, nə təhər eləyək, biz heç, dözürük, Allahın qismətidi bu kasıb ömür-gün, uşaqlara baxıb əzab-ağrı çəkirəm, axı, yeyən vaxtlarıdı onların. Cükküldəşirlər. Bət-bənizləri solub-saralıb... Ha vərəvurd eləyirəm, çarə tapa bilmirəm. Bəlkə kiməsə kəniz olum, hə?

Aqil tərs-tərs baxdı ona. Bilirdi, deməyinə baxma, ölər, amma heç kimsəyə kəniz olmaz Həlimə. Yadına düşdü ki, ev təsərrüfatı, uşaqların tərbiyəsi bir yana, yoxsulluqdan can qurtarmaq axtarışlarının ağrısını zövcəsi ondan betər çəkir.

Bir gün sübh namazından sonra həyətdə gəzinirdilər. Həmin vaxt, yəni namazdan səhər açılana kimi, 1,5 saatlıq müddət cənnət havası olur: bakirə, təmiz, saf hava. Asta-asta deyirdi Həlimə:

-Sənin əmin oğlu Həzrəti Mühəmməd (S) deyir: yoxsulluqdan tez yaxa qurtarmaq istəyirsənsə, darı ək, keçi saxla. Biz tənbəllik eləyib, nə darı əkdik, nə keçi saxladıq. And olsun Yaradana, Aqil qonşulardan horra bişirmək üçün bir ovuc un istəyəndə xəcalətimdən puçur-puçur tər tökürəm, o dünyanı görüb gəlirəm... Sən nə fikirləşirsən? Haçanacan belə yaşayacağıq? Bəs nə eyləyək? Əlimiz göydədi... Görünür, günahımız böyükdü ki, Allahın hələ bizə rəhmi gəlmir. Əmioğlunun bu sözlərini də istəyirəm yadına salam. O deyir: sərvət toplamağın on yolu varsa, doqquzu ticarətdi. Bizdən iki ev aralı Zübeyir var, dükan açıb, alver eləyir bazarda, ailəsini, uşaqlarını gen-bol dolandırır... Aqil, əzizim, iki gözüm bəlkə gedəsən Kufəyə, böyük qardaşın Əlinin yanına. Axı, iki ildi xəlifədi o, xəzinəsi var. Borc götür, gəl başla alverə, sonra iman düşən kimi qaytararsan borcu.

Keçən ay bu zəhrimar ticarət söhbətini eşitdirmişdi Həlimə ona, amma beyninə batmırdı. Ürəyində şübhə vardı. Bəlkə Həlimə bizi-iki qardaşı üz-üzə qoymaq niyyətindədi. Borc istəyim Əlidən, o verməsin, aramıza nifaq düşsün. Əmioğlum nə deyir? ”İlahi özün məni şəri şeytandan, quru böhtandan, məkri zənəndən və gor əzabından qoru”. İnanmıram bu sevgili zövcəm məkrli, hiyləgər olsun. O yazığın günahı yoxdu. Nə istəyir? Gecə-gündüz ailənin, balaların doyunca qarın çörəyi olsun deyə, özünü fəda eləyir. Rəsulu Əkrəmin sözləridi: ağıllı, saf əqidəli, imanlı qadınların da sözlərinə baxmaq məsləhətdi.

Aqil yola düşdü Kufəyə, böyük qardaşın yanına pənah apardı. ”Bir evdə böyümüşük. O, həmişə arxam, köməyim olub”. Yadına düşdü: bir dəfə Əli xurma ağacının altında ağzı üstə uzanıb göz yaşı axıdırdı. Soruşdum: ”Qardaş nə olub belə? Niyə ağlayırsan? Cavab verdi: Allaha yalvarırdım ki, bir göz qırpımı qədər belə məndən lütfün əsirgəməsin”.

Aqil düşünürdü: görəsən Əli xilafəti necə idarə edir? Haqq yolunu azmayıb ki, əvvəllər olduğu kimidi, yoxsa Əbubəkir, Osman kimi əxlaqsız, iyrənc əməllərə qurşanıb? Düz 25 il onun xəlifəlik yolunu bağlamışdılar. Hələ sağlığında iki dəfə peyğəmbər demişdi: Əli mənə qardaş qədər yaxındı. Haçan mən axirət dünyasına köçdüm, hakimiyyət onun əlində olmalıdır. Lakin bu vəsiyyəti Əliylə müxalifətdə olan Ayişə, Əbubəkir, Ömər, Osman qəsb etdilər, xilafəti çətin duruma qoydular. Haqsızlıq, ədalətsizlik, hərcmərclik baş alıb getdi... Və budur, ikinci ildir ki, Allahın hökmüylə qardaşı Xəlifədir. ..Borc almaq qəbahət, kimsəyə yardım əli uzatmaq deyil, şərt odu ki, borcu deyilən müddətin vaxtı ötmədən, tərəflər arasında ixtilaf olmadan, qaytarasan. Ulu Yaradanın rəsulu Mühəmmədin buyurduğu kimi, sələmə, daha düzü faizlə qazanc əldə etmək düzgün deyil. Birisinin o birinə borc verməsini də aləmə car eləmək olmaz. Sağ əlin verdiyini sol əl bilməməlidir. Hansı niyyətlə olursa-olsun səndən borc götürən şəxsi görəndə özünü varlı-imkanlı bilib, ona yuxarıdan aşağı, təkəbbürlə baxma. Bu, Allahın xoşuna gəlməz, mələklər sənə günah yazar.

Ataları Əli İbn Əbu-Bəkr mömin bəndə idi, Həzrətin əmisi olsa da, ömrünün sonuna kimi biət elədi qardaşı oğluna, ailəsini ticarətlə dolandırdı, kimsəyə borca getmədi...

Aqil axşam şər qarışandan sonra varid oldu Kufəyə. Görüşdü, öpüşdü qardaşı ilə. Vay, bu nədi, xəlifə elə culuz əyin başdadı, keçmiş şahlara məxsus zər libası yoxdu. Soruşmadı. Şam yeməyində yenə arpa çörəyi? Bəs haçan Əli, onun ailəsi varlı-karlı insanlar, uzaq-uzaq ellərə gedib-gələn tacirlər kimi buğda çörəyi yeyəcək? Dözdü, dözə bilmədi, gəlişinin məqsədini açıqladı qardaşına: ”Xəzinədən mənə borc ver, qoy əhli-əyalım yoxsulluq bəlasından qurtarsın, dükanım olsa bazarda, pis dolanmarıq, borcu da hissə-hissə qaytararam...” Əli söz-söhbətin yönünü dəyişdi, uşaqlıq, yeniyetməlik çağlarını yada saldı... Üstünü vurmadı. Aqil, amma ürəyində küsdü, incidi qardaşından: ”Deyəsən Əli boş yola salacaq məni”.

Sabah qəribə, xəyalına gəlməz vaqiə ilə qarşılaşdı. Əli iynə-sap gətizdirdi.

-Neynirsən onu?

-Çarığımın böyrü sökülüb, onu tikəcəm.

Məəttəl qaldı:

-At getsin, təzəsini gey.

-Bəs bunu neyləyim?

-Yama, sat birisinə, ayaqyalın o qədərdi ki...

-Mənim yamaqlı çarığımı geyən fikirləşməzmi buna bax, köhnəni mənə satıb, özü təzəsini geyir? Nə olsun mən xəlifəyəm, bəyəm başqalarından artığam? Xilafətdə hamı necə, mən də o hamıdan biri. Xəzinə, saray xalqın bir yerə cəmlədiyi mal-mülkdü. Nəfsimi tərbiyə etməyib bu mal-mülkə başqa gözlə baxsam, günaha bataram, bizi xəlq edənin sevgisindən məhrum olaram... Unutma ki, dünya mömünün zindanıdır və nəfsini tərbiyə etməyi bacarmayan, qövmünün malına əl uzadan mömün sayılmır. Xəzinə Beytülmalıdır, ona əl uzatsan, haqq-ədalət nizamı pozular.

Həzrəti Əlinin xəlifəlik dövründə xilafətin gəlirlərinin toplandığı, xərclərin mənbəyi olan beytülmal, indiki anlamda dövlət büdcəsi funksiyası daşıyan maliyyə qurumu olmuşdur. Gəlirlər bir yerə toplanar və lazımi işlərə sərf edilərmiş. Müşriklərə qarşı vuruşmuş səhabələrə, yeni doğulan uşaqların valideynlərinə, yoxsullara, ehtiyacı olan, lakin utandığından bir kimsəyə əl açıb dilənməyən miskinlərə, iman gətirib, hələ kamil mömün olmayanlara, azad edilən qullara, Allah yolunda cihad edənlərə, imkansız şəxslərin dəfninə, pulu qurtardığı üçün yolda qalan, vətəninə qayıda bilməyən müsafirlərə... köməklik beytülmalın göstərdiyi xidmətlərə daxil idi. Burada yaradılan xüsusi fondda azı 8-10 milyon dirhəm ehtiyat saxlanardı.

Fikir verirsinizmi Həzrət Əlinin zamanında xəzinə-Beytülmal necə bölüşdürülüb.

...Axşam bazara getmişdilər. Tacirlərin malları ayrı-ayrılıqda piştaxta arxasındaydı. Gözətçi yox idi. Əli Aqilə dedi:

-Götürə bilərsən bu mallardan? Yox, oğru yoxdu. Bax, düzlük, bərabər yaşam tərzi, ədalət, nəfsin tərbiyəsi budu ha!

”Deyəsən əli ətəyindən uzun qayıdacam... Xəzinədən mənə borc verilməyəcək... Eybi yox, naümüd şeytandı, hələ dözüm. Allah kərimdi-düşünürdü Aqil.

Evə dönmək istəyini bildirdi qardaşına.

-Hələ gözlə, - dedi Əli. Sonra məsciddə elan verdi hamıya və xəzinədən iki aylıq məvacibini götürüb onun yarısını verdi qardaşına.

-Biz birtəhər dolanarıq. Sən bu vəsaitlə qayıt əhli-əyalının yanına, başla ticarətə. Onu qardaş payı bil, qaytarmağı xəyalına gətirmə. Unutma ki, qardaş malı qardaşa halaldı. Qənaətcil ol. Tezliklə Allahın kəraməti ilə varlanarsan, yoxsulluq əzabından qurtararsan.

Uçmağa qanadı yox idi. Qardaşı əl tutmuşdu ona...

**Əlibala Rəhimov,**
**publisist, filoloq**
**”Qızıl qələm” mükafatı laureatı,**
**Biləsuvar rayonu**